## Cəmil Əkbər

# Nədir?

Göz görür, əqil kəsir, könül də sevdikcə sevir
Sevənlərin sevilәndən məqsədi umması nədir?
Könüllərin adətidir, istəyindən dönə bilmir
Bir demir ki, sevdiyindən ülvi təmənnası nədir?

Əzəl gündən, ibtidadan, səbəb nədir, nəticə nə?
Babaların atası kim, nəvəsi kim, kötücə kim?
Əvvəli kim, axırı kim, sonuncu kim, yaddıca kim?
Bilən yoxdur bu dünyanın, sirri müəmması nədir?

Eşitmişəm eşq ucundan, öz canından keçənləri
Araşdırıb ləli gövhər, xiridarı seçənləri
Dolduraraq badələri, sağlıq deyib içənləri
Bəs sonradan üz çevirib ondan usanması nədir?

Qismət olmur sevənlərə, sevgili canan nə üçün?
Eşqə uyub çölə düşdü Məcnunla, Sənan nə üçün?
Qarşı gəlmir nəciblərə, dərd əhli, qanan nə üçün?
Könüllərin nahaq yerə odlara yanması nədir?

Mən *Cəmil*'əm, peşəm budur haqqı ədaləti deyim
Bədəməllər sahibi də, çəkər xəcaləti deyim
Nahaq yerdən evyıxanlar görər zəlaləti deyim
Kim sözümə inanmasa, dəlili əmması nədir?